# “Difai”nin canlı bürcləri



Elbəyi Cəlaloğlu

Sabir Rüstəmxanlının tarixi sənədlərə söykənərək yazdığı “Difai fədailəri” romanı istənilən türk və Azərbaycansevər üçün, eləcə də XX əsrin əvvəlində Azərbaycan torpaqlarında gedən ictimai-siyasi proseslər barədə özündə fikir formalaşdırmaq istəyənlər üçün çox əhəmiyyətli bir əsərdir. Kitabda o dövrün psixologiyası, Azərbaycan insanının milli özünüdərk səviyyəsi, zamanın tələb etdiyi düşüncə tərzinə inteqrasiyası, dövlətçilik ənənəsinin yaşadılmasında tutduğu mövqeyi aydın şəkildə və sadə dildə qələmə alınıb. Bundan başqa, XX əsrin əvvəlində azərbaycançılıq, türkçülük, dövlətçilik ideyalarının carçılarından, onların fəaliyyəti və tutduğu yoldan bəhs edilir. Baş qəhrəmanı tarixi şəxsiyyət Əhməd bəy Ağaoğlu olan “Difai fədailəri”ni oxumaq sözü gedən dövr barədə bir çox suallara cavab tapmaq, əsərdəki obrazlarla - tarixi şəxsiyyətlərlə sanki birgə addımlamaq deməkdir. Bu şəxsiyyətlər barədə müəyyən qədər bilgilərimizin, məlumatımızın olduğuna baxmayaraq, həmin mənzərə Sabir Rüstəmxanlının təqdimatında bədii çalarları ilə daha işıqlı, daha təfərrüatlı təsir bağışlayır. Bunlardan başqa Avropada gedən proseslər, qərb psixologiyası, o dövrün müsəlman düşüncəsi, cəhalətə qarşı aparılan mübarizə, Qarabağın qədim ənənələri, Azərbaycanın ayrı-ayrı yerlərinin landşaftı, türk mərdliyi, ermənilərin qədim Azərbaycan torpaqlarına köçürülməsinin səbəbləri, ermənilərin addımbaşı yaratdığı fitnə-fəsadlar, törətdiyi vəhşiliklər, 1905-ci il erməni-müsəlman davasının yaranmasına rəvac verən erməni iyrəncliklər, rus-erməni işbirliyi, Osmanlı siyasi fikri, müasirliyin Avropadan gətirilməsi məsələləri və bir sıra digər məqamlar əsərdə öz əksini tapır. Kristallaşmış erməni saxtakarlığı, erməni allahsızlığı, vəhşiliyi “Bakıda tökülən qan”, “İrəvan faciəsi”, “Alov Yelizavetpolu da yaxdı” fəsilləri, “Sırxavəndli uşaqlar, “Cəmil və Ayçiçək” bölmələri və s.-də olduğu kimi əsər boyu oxucunu təqib edir. Müəllifin çox aydın təsvir etdiyi Umudlu kəndinin ağılalmaz faciəsi, onların ümidsizliyə düçar olması və bu dramatik səhnənin içindən Cəmil və Ayçiçək kimi Umudlunun çırağını yenidin yandırması ayrıca bəhs olunmalı bir mövzudur. Müəllif bununla bəlkə də türk ruhunun tükənməz olduğunu öz bədii təfəkkürü ilə oxucuya çatdırmaq istəyib.

Erməni-müsəlman münaqişələrini doğuran əsas səbəbləri müəllif əsərdə belə şərh edir: “Daşnaqsütyunun xəyanəti və çar hökumətinin fitvasıyla türk-erməni savaşı belə bir vaxtda - xalqın başını qarışdırmaq, mərkəzi hökuməti hədəfdən yayındırmaq, milli azadlıq hərəkatlarını tələyə salmaq niyyətiylə başlanmışdı...” (s.209). Eyni problemin süni surətdə yaradılmasını kitabda bu cür də oxuyuruq: “Savaş meydanlarında, diplomatiya aləmində məğlubiyyətlərini, ölkə daxilində həll edə bilmədiyi çətinlikləri unutdurmaq, pərdələmək üçün vəziyyəti daha da ağırlaşdırmaq, yeni konfliktlər yaratmaq Rusiya siyasətinin köhnə üsullarındandır” (s.284).

“Difai fədailəri”nin ilk bölməsi - “Şuşaya dönüş”də Əhməd bəy Ağaoğlunun Parisdən Şuşaya qayıdış səhnəsi təsvir olunur. Bu səhnədə Əhməd bəyin keçmişi xatırlamasından bəhs olunur və erməni şovinist düşüncəsini, uşaqlıqdan onların qafasına yeridilən “türk sənin düşmənindir” şüarını, Peterburq universiteti və yerli realnı məktəbi, gimnaziyanın əsasən xaçpərəstlər üçün qurulmuş olduğunu, müsəlmanların məktəblərdən uzaq olduğunu sezmək olur. Və müəllifin özü dediyi kimi, gimnaziya müxtəlif əngəllərlə ya türk övladlarını məktəbdən qaçmağa məcbur edir, ya da məktəbi bitirən türk balalarında türklükdən əsər-əlamət qalmır.

Əsərdə həm ictimai-siyasi, həm də fiziki həyatı təfsilatı ilə əks olunan Əhməd bəyin məktəbdə oxuyarkən əvvəlcə erməni mənşəli müəllimin, sonra da tapşırıq almış erməni əsilli həmyaşlarının onun başına açdığı mənəvi və fiziki əzablardan, psixoloji gərginləşdirmələrdən çəkmiş olduğu əziyyətlərdən geniş bəhs edilir. Müəllif bütün bu xoşagəlməz hadisələrin həm də qəhrəmanının öz böyük gələcəyini qurmasında ona stimul olduğunu da obrazlı surətdə əsərdə canlandırıb. Əhməd oxuyub gələcəkdə savadlı bir türk kişisinə, millətinin xilaskarına çevrilməyi qarşısına məqsəd qoyur və buna nail olur. Onun Peterburqda əvvəlcədən tanıdığı, təməsda olduğu Şeyx Əhməd Səlyaninin nəvəsi Əli bəy Hüseynzadə və Əlimərdan bəy Topçubaş ilə tanışlığı bu üçlüyün gələcəkdə Azərbaycanın əvəzsiz bir xilaskarına çevrilimsinə səbəb olduğunu əsərdə asanca izləyə bilirik. “Peterburq görüşləri” bölməsində bu üçlüyün böyük qələbələrdən birini əldə etmələrini oxuduqca təsirlənməmək mümkünsüzdür. Bu tipli görüşləri “Məmməd Əminlə tanışlıq”, “Tiflis. Sülh danışıqları”nda da müşahidə edirik. Tiflisdə keçirdilən, nəticəsiz sülh danışıqlarından sonra Gəncəyə qayıdan heyət burada yerli ziyalılarla müzakirələr aparır, Əhməd bəyin təklifi ilə “Difai” firqəsi və onun Gəncə şöbəsi yaradılır. Təbii ki, öz müşahidələrini əsas götürərək, Azərbaycanın bu problemlərdən xilas yolunu axtaran Əhməd bəy Gəncəyə bu dəfəki gəlişinə qədər “Difai”nin konturlarını cızmış və ya onun vətənpərvər ziyalılardan ibarət olmaqla canlı bürclərini özlüyündə müəyyən etmişdir. Müəllif bu səhnədə Əhməd bəyi düşməndən müdafiə xarakterli təşkilatın qurulmasına sürükləyən amillərin ümumi səbəbini belə izah edir: “Parisdə liberal düşüncəyə yiyələnmişdi, qarışqaya da qıymazdı. Ancaq çar üsul-idarəsinin millətinin başına açdığı oyunları, ayır-buyur siyasətini, axıdılan nahaq qanları görəndən sonra sərt yollar aramaqdan başqa imkan tapmamışdı” (s.313). Bundan sonra şöbələrin yaranması Qarabağı müdafiə komitəsinin təşkili ilə davam edir. Difai hərəkatının gördüyü sərt tədbirlər Qafqazda münaqişənin səngiməsinə, erməni terrorçuların məğlub olmasına və nəhayət Daşnaksütyunun barışıq təklifi ilə çıxış etməsinə səbəb olur. Bu ziddiyyətli hadisələr Əhməd bəyin İstanbula köçməsinə qədər davam etsə də, əsər baş qəhrəmanın, Əli bəy Hüseynzadənin və albay Bilal Qarabağlının 1918-ci il sentyabrın 15-də Nuru Paşanın başçılıq etdiyi Türk-İslam ordusunun önündə yenidən Bakıya qayıtmaları ilə sona çatır.

“Difai” sözünün mənalandırılmasına gəldikdə isə müəllif bunu dərhal açıqlamamaqla oxucunu əsərdən daha möhkəm yapışmağa sövq edir və bu açıqlama ilə ilk dəfə 336-cı səhifədə məşhur dramaturq Nəcəf bəy Vəzirovun dediklərində qarşılaşırıq. Burada Əhməd bəy təşkilatın adını çəkərkən Nəcəf bəy, - Müsəlmanın əlindən nə gəlir ki, biz elə həmişə müdafiə olunuruq da!.. - deyə cavab verir. Nəhayət, müəllif bu açıqlamanı fəsil başlığına çıxarır - “Difai - dəf deməkdir”. “Difai” dedikdə Əhməd bəyin “bizim əsas işimiz maarifçilikdir, xalqa başa salmaq, birləşdirmək, qanunlar daxilində öz haqqını tələb etməyi öyrətməkdir, belə olsa zora, cəzaya ehtiyac qalmaz, əyri yol tutanları da başa salmalı, bəd əməllərdən, millətə ziyan vuran hərəkətlərdən çəkindirməliyik. Allah yaradan canı bəndənin almağa ixtiyarı yoxdur. Bu yolu tutsaq biz də olarıq Daşnaksütyunun tayı...” bunları nəzərdə tutması əsil demokratik, müasir düşüncə tərzi sərgiləməsi, elitar fikir yürütməsi və məsələyə sivil gözlə baxmasından xəbər verir. 366-cı səhifədə isə sözün mənası “dəf etmək, müqavimət göstərmək, müdafiə olunmaq” kimi açıqlanır.

Əli bəy Hüseynzadənin sultan Əbdülhəmidlə fikir ayrılıqları da əsərdə özünə yer alıb. Sultan Əbdülhəmidin “Türk deyə-deyə Türkiyədəki başqa xalqları hürküdürsən, dövlət üçün problem yaradırsan”, deməsi Əli bəyin təəssüfünə səbəb olur və o, Azərbaycana qayıtmağa qərar verir. Beləliklə, dostlar - Böyük üçlük Azərbaycanda bir araya gələrək bu dövlətin quruculuq işində töhfələrini verməyə başlayırlar. Milli şüurun formalaşdırılması naminə görülən işlərə Hacı Zeynalabdin Tağıyevin ağsaqqallıq etdiyi, maddi dəstək verdiyini və Əlimərdan bəyin təklifi ilə Hacının Əhməd bəyi Bakıya dəvət etdiyi, beləliklə, Əhməd bəyin “Kaspi” qəzetində çalışmağa başlaması və, nəhayət, çətinliklə də olsa “Həyat” və “İrşad” qəzetlərinin nəşrinə nail olmaları ilə də əsərdə bir daha tanış oluruq.

“Difai fədailəri”ndə diqqətimi çəkən məqamlardan biri yenə də Əhməd bəy barədədir. Bu bir neçə cümləni oxuduqca bunların həm də Sabir Rüstəmxanlının özü haqqında olduğunu düşünürsən: “Qəzetləri gözdən keçirə-keçirə Əhməd bəy siyasi mübarizə ilə maarifçiliyin bir-birinə möhtac olduğunu dərk edirdi. Dünyanın bu vaxtında yazı pozu adamının yaxasını kənara çəkərək “mən siyasətə qarışmıram” deməsi əslində, “mən millətimin gələcəyini düşünmürəm” demək idi”. Bununla bərabər əsər boyu Əhməd bəyi təqib edən millətçilik-dövlətçilik mübarizəsindən doğan çabalar, Azərbaycan ərazisində baş qaldırmış terror hadisələrinin yaşatdığı sıxıntı, bu bəlalardan xilas yolunun axtarışı Sabir Rüstəmxanlıya yaxşı tanış olan tale məsələsi, bəlkə də doğma gələn həyat tərzidir. Əlbəttə ki, müstəqilliyimizin bərpası uğrunda gedən proseslərin, meydan hərakatlarının, milli azadlıq mücadilələrinin ən fəal iştirakçılarından biri də məhz Sabir bəy idi. O, bu günə qədər də ölkənin taleyüklü məsələlərindən heç vaxt kənarda qalmayıb ziyalı mövqeyini sərgiləyib.

Əsərdə Sabir bəyin bədii ifadələrdən, uğurlu bənzətmələrdən ustalıqla istifadə etməsi ayrıca bir yazı materialıdır. Hər bir bölməsi özlüyündə bir əsər olan kitabda bu cür təşbehlər yetərincədir. Burada isə, onlardan bir neçəsini nümunə gətirməklə kifayətlənsək daha uyğun olar: “...qürbətdə çalışıb-oxuyub, sünbül kimi dən bağlayıb vətənə dopdolu qayıtmasının bir səbəbi də öz üstünlüyünü (söhbət Əhməd bəydən gedir - E.C) sübut eləmək,.. olmuşdur.” (s.13), “Bürclər dağ başında bir muğamat ziliydi” (s.91), “...burulğan yerdəki yarpaqları aldı xortumuna...” (s.214), “...onu (Cəmili - E.C) asqırmaq tutmuşdu. Qızlar güllə səsinə sıçrayan ceyran kimi yerlərindən atıldılar” (s.216), “Sonra yır-yığış bitdi, alaçıqların keçəsini heyvan dərisi kimi boğazından çıxartdılar...” (s.224) və s.

Ədiblərimizi, qiymətli yazarlarımızı düşünəndə yazıçıların sözü düşüncə qazanında ürək yağıyla, könül suyuyla bişirdikləri qənaətinə gəlirəm. Yazıçı olmaq əgər bir arzudursa, o, həyatdakı sonsuz suallara gücün çatdığı qədər cavab vermək istəyindən doğanda möhtəşəm olur. Əlbəttə, bu ifadələr Sabir Rüstəmxanlıya və onun yaradıcılıq dünyasına çox yaraşır. O, təvazökar, çalışqan, yorulmaz, müşkül sualların cavabını, bağlı qapıların açarını axtaran şair, yazıçı və dəyərli ziyalımızdır.

